## Mövzu 26. CƏNUBİ AZƏRBAYCAN 1828-1917-Cİ İLLƏRDƏ

## PLAN

1. **Cənubi Azərbaycan Türkmənçay müqaviləsindən sonra**
2. **İqtisadi və siyasi durum**
3. **Əhalinin sosial narazılığının artması. Xalq çıxışları**
4. **Cənubi Azərbaycan 1905-11-ci illər İran inqilabının mərkəzi kimi. Səttərxan hərəkatı**
5. **Ş.M.Xiyabaninin başçılığı ilə milli-azadlıq hərəkatı.**

Türkmənçay müqaviləsindən sonra İrana qatılan və onun 4 əyalətindən birini təşkil edən Azərbaycan əyaləti ərazisinə ilk dövrlərdə cənubda Həmədan, cənub-şərqdə Zəncan və Qəzvin mahalları da daxil idi. Sonralar Azərbaycan əyalətinin inzibati sərhədləri daraldılmış və 1906-cı ildə qəbul olunmuş seçki nizamnaməsində bu əyalətə Təbriz, Urmiya, Xoy, Deyləmqan, Maku, Marağa, Binab, Miyandoab, Sovucbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Meşan, Astara, Xalxal, Sərab, Miyanə və Sainqala mahalları daxil edilmişdi. Say etibarilə azərbaycanlılar həmişə farslardan sonra II yerdə olmuşlar. Gülüstan müqaviləsindən sonra İran hökuməti Cənubi Azərbaycan əyalətində bir sıra nüfuzlu və qüvvətli xanların hakimiyyətini tanımaqla onları ayrı-ayrı xanlıqların hakimi təyin etdi və daxili işlərinə qarışmır, onlardan vergi və əsasən silahlı qüvvə tələb edirdi. Qacarların hakimiyyəti dövründə İran ordusunun əsas piyada və atlı hissələri məhz Cənubi Azərbaycanın müxtəlif təbəqələrindən toplanan qüvvələr idi. Maku, Urmiya, Nəmin və Gərgər kimi güclü xanlıqlar istisna olmaqla qalanları ləğv olundu. Dövlət keçmiş xanlıqların yerinə yaradılmış ayrı-ayrı vilayətlərə lazım bildiyi adamları hakim təyin edirdi. Qacarlar sülaləsinin daxili siyasətində Cənubi Azərbaycan xüsusi yer tuturdu. Fətəli şah dövründə Cənubi Azərbaycan «vəliəhdneşin» (vəliəhd yerləşən yer) hesab edilmiş, «darüssəltənə»(səltənət evi) adlandırılan Təbrizdə isə bundan sonra həmişə Qacarların rəsmi vəliəhdləri oturmuşdular. Bu isə Azərbaycanın İran üçün iqtisadi və siyasi əhəmiyyətindən doğurdu. Vəliəhdin Təbrizdə oturması və onun II paytaxt olması ilk dövrlərdə xarici diplomatik nümayəndələrin iqamətgahının məhz burada yerləşdirilməsinə səbəb olmuşdu.

Türkmənçay sülh müqaviləsi bağlandıqdan sonra İranla Rusiya arasında diplomatik münasibətlər bərpa edildi. İrana göndərilən səlahiyyətli rus səfirinin iqamətgahı Rusiya və Türkiyənin baş konsulluqları da Təbrizdə yerləşirdi.

Şahzadələr içərisindən təyin olunan valinin (qaiş-məqaş) sərəncamında olan böyük idarə aparatında Təbriz şəhərinin bəylərbəyi əyalətdə yerləşən bütün nizami qoşun və ümumiyyətlə əyalətin maliyyə işlərinə başçılıq edən mustofi və b. daxil idi. Yerlərdə bu apparat nisbətən kiçik miqyasda təkrar edilirdi.

XIX əsrin 30-60-cı illərində Cənubi Azərbaycanda əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisinin deyil, şəhər əhalisinin də bir hissəsi əkinçilik, bağçılıq, bostançılıq və digər kənd təsərrüfatı sahələri ilə məşğul olurdu. Cənubi Azərbaycanda ən məhsuldar taxılçılıq və meyvəçilik rayonlarından biri idi və əyalətdən taxılla yanaşı quru meyvələr də ixrac olunurdu. XX əsrin 60-70-ci illərinə qədər Cənubi Azərbaycan İranın taxılçılıq və heyvandarlıq bazası hesab edilirdi. Şəhərlərdə müxtəlif sənətkarlıq sahələri-ayaqqabı, saxsı və ya mis qab-qacaq, digər məişət şeyləri, təsərrüfat alətləri və s. istehsalı xeyli inkişaf etmişdi. Rusiya və İngiltərənin İranda əldə etdikləri imtiyazlı müqavilələr nəticəsində xarici malların ölkəyə geniş və maneəsiz axını ilə bağlı Azərbaycandakı bir sıra emalatxanalar və sexlər rəqabətə davam gətirməyərək öz fəaliyyətini dayandırmalı oldular.

Cənubi Azərbaycan şəhərlərində hələ XX əsrin 20-ci illərinin əvvəllərinə qədər də orta əsrlərə xas olan sex quruluşu qalmaqla davam edirdi. Bununla yanaşı daxili və xarici bazarda rəqibi olmayan malların istehsalı ilə məşğul olan sahələr üzrə muzdlu əməkdən istifadə edən manufakturaların yaranması və onlara xas münasibətlərin formalaşması prosesi inkişaf edirdi. Şimali Azərbaycan, onun vasitəsilə Qafqaz və Rusiya ilə mədəni, iqtisadi əlaqələrin davam etməsi ilə bağlı Cənubi Azərbaycan XIX və XX əsrin əvvəllərində İranın ictimai-siyasi, mənəvi inkişafında mühüm mövqe tuturdu. Bununla belə XIX əsrdə və XX əsrin əvvəllərində butun İranda olduğu kimi Cənubi Azərbaycanda da iqtisadi durğunluq özünü göstərirdi. Bunun əsas səbəbi İran dövlətinin Avropa dövlətləri ilə bir-birinin ardınca bağladığı qeyri-bərabər, aldadıcı müqavilələr, o cümlədən ticarət muqavilələri və onlardan aldıqları yüksək faizli borclar və s. nəticəsində ölkədə təslim rejiminin yaranması idi. İran, eləcə də Cənubi Azərbaycan İngiltərə və Rusiyanın sənaye mallarının satış bazarına, eyni zamanda bu ölkələrin, başlıca olaraq çar Rusiyasının sənayesini xammalla təchiz edən mənbəyə çevrildi. İranın ümumdünya bazarına cəlb olunması bəzi sənaye sahələrinin-dağ-mədən sənayesi, kənd təsərrüfatı mallarının emalı ilə məşğul olan sahələrin yaranmasına və istehsalına müsbət təsir göstərirdi. Lakin bu asılı ölkələrə xas olan birtərəfli inkişaf idi.

Xarici bazarda, o cümlədən Rusiya bazarında, pambıq, xammal, boyaq maddələri, yun, gön-dəri, bağırsaq və s. kimi əkinçilik və heyvandarlıq məhsullarına, həmçinin bəzi sənətkarlıq mallarına olan tələbatın artması həmin sahələrinqismən Azərbaycanda da inkişafına təkan verdi.

XIX əsrin son rübündə xalça istehsalı sənayenin kapitalist münasibətləri inkişaf etmiş ən başlıca sahəsi idi. Təbrizdə pambıq, tütün, həna və s. ilkin emalı üzrə müəssisələr də fəaliyyət göstərirdi. XX əsrin əvvəllərində ayrı-ayrı müəssisələrdə muzdlu əməkdən istifadə artıq səciyyəvi hal olmuşdu.

İranda xarici kapitalın və feodal üsulu idarəsinin hökmranlığı Cənubi Azərbaycanda da milli sənayenin inkişafı üçün çox böyük maneələr yaradırdı. Belə bir vəziyyətin yaranması xarici bazarın tələbinə uyğun olaraq burada ticarət əkinçiliyinin artmasına, torpağın kapital tətbiqi üçün yeganə sabit obyekt və gəlir mənbəyinə çevrilməsinə səbəb olmuşdur. Əksərən torpaqsız olan və başqa istehsal vasitələrinə isə qismən malik kəndli əkin üçün sahəsi feodaldan paydarlıq icazəsi əsasında icarəyə götürürdü. Kəndli icazə haqqından başqa, mülkədara əlavə vergilər verir, feodal mükəlləfiyyətləri daşıyırdı. Bundan başqa kəndlilər feodalın torpağını idarə edən mübaşir, kətxuda və başqa məmurların öz xeyirləri üçün təyin etdikləri əlavə vergilər də verməli olurdular.

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda kəndlilərdən alınan müstəqim və qeyri-müstəqim vergilərin miqdarı xeyli (10 dəfə) artırıldı. Nəticədə Azərbaycandan Bakı, Tiflis, Patrovka kəndlilərin, kəsbkarlığı gedənlərin güclü axını başlandı. 1903-cü ilin məlumatına görə Bakıda Cənubi Azərbaycandan gəlmiş işçilərin sayı yerli işçilərin 22 %-ə qədərini təşkil edirdi.

Vəliəhdin iqamətgahının Cənubi Azərbaycanda yerləşməsi bir tərəfdən bu vilayətin ölkə miqyasında xüsusi mövqeyə malik olmasınışərtləndirirsə, digər tərəfdən də yerli əhalinin yaşayış tərzinin ağırlaşmasına, mənəviyyatının ətalətinə səbəb olurdu. Belə ki, Qacar şahzadələri öz ad, məqam və malik olduqları ixtiyardan istifadə edərək şahın özünün istibdalından daha şiddətli və daha qəddar bir istibdadla xalqı incidirdilər. Əhali həm yerli xanların, həm də hakim sülalənin getdikcə möhkəmlənən hakimiyyətinin zülmünə məruz qalırdı. Azərbaycanda hakim dairələrin zülm siyasəti –qanunsuzluq, soyğunçuluq, yerli əhalinin müxtəlif təbəqələri içərisində narazılığın artmasına, kütləvi həyəcan və çıxışların baş verməsinə səbəb oldu. 30-cu illərin sonu-40-cı illərin əvvəllərində bir neçə dəfə çıxış oldu, lakin tez də yatırıldı. 1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacir və şəhər yoxsulları

hakimə qarşı çıxmış və onu şəhərdən qovmuşdular. 1848-ci ildə Təbrizdə şəhər yoxsulları və sənətkarların çıxışları baş verdi. 1850-ci ildə Zəncanda babilər üsyana qalxdılar. Babizmin banisi Şirazda xırda tacir ailəsində doğulmuş seyid Əli Məhəmməd olmuşdur. O, özünü son imam Mehdi ilə xalq arasında vasitəçi elan etmiş və buna görə 1844-cü ildən Bab (ərəbcə - qapı) ləqəbini götürmüşdür. Zəncanda babilərin sayı 15 minə çatırdı. Onlar şəhər qalasını tutdular. Şəhər 2 hissəyə bölünmüş oldu. Babilər kəndli, sənətkar, tacir və ruhanilikdən ibarət idilər. Ətraf kəndlərdən olan əhali onları gizli olaraq ərzaqla təmin edirdi.